№ 23-24 (807) 31 dekabr 2024-cü il Qəzet 1991-ci ildən nəşr olunur www.health.gov.az

# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi



Prezident İlham Əliyev səhiyyə ilə bağlı bir sıra sənədlər imzaladı

2



«Elektron hökumət» portalına dərmanlarla bağlı iki informasiya resursu qoşulacaq

3



Milli Məclisdə səhiyyə ilə bağlı qanun layihələri müzakirə olundu

4

# Leyla Əliyeva Pediatriya və Mamalıq və Ginekologiya institutlarını ziyarət edib



Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutunu və Elmi Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunu ziyarət edib.

5



## Təyyarə qəzasının səbəblərinin araşdırılması üzrə Dövlət Komissiyasının iclası keçirilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə təyyarə qəzasının səbəblərinin araşdırılması üçün yaradılmış Dövlət Komissiyasının iclası keçirilib.

Səh. 6

## Səhiyyə naziri təyyarə qəzasında xəsarət alan vətəndaşlarımızı ziyarət edib



Səhiyyə naziri Teymur Musayev “Azərbaycan Hava Yolları” aviaşirkətinin təyyarəsinin Aktau yaxınlığında qəzaya uğraması nəticəsində xəsarət alan vətəndaşlarımızı ziyarət edib.

Səh. 6

## Səhiyyə Nazirliyi əhaliyə müraciət edib



10

### *Aforizm*

*Dünyada xeyir iş görməyən insan əbəs yerə yaşayır.*

*C.Fuller*



# Prezident İlham Əliyev səhiyyə ilə bağlı bir sıra sənədlər imzaladı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Məclisin qəbul etdiyi "“Əhalinin sağlamlığının qorunması haqqında” və “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Qanunu imzalayıb.**

Sənəddə hər iki qanunda tibbi sığorta hadisələri zamanı dərman və tibb vasitələri ilə təchizat məsələləri müəyyən olunub.

Dövlət başçısı həmçinin bu Qanunun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman verib.

Sənəddə müəyyən edilir ki, “Tibbi sığorta haqqında” Qanunda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini kim və ya hansı qurumlar həyata keçirir.

Fərmanda həmçinin Nazirlər Kabinetinə yeni Qanunun tətbiqi ilə bağlı tapşırıqlar verilib.

Sənəddə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsi”ndə sığortaolunanların dərman və tibb vasitələri ilə təmin edilməsi barədə dəyişikliklər edilib. Eləcə də “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun tətbiqi və “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 yanvar tarixli 502 nömrəli Fərmanında müvafiq dəyişikliklər olunub.

Dövlət başçısının imzaladığı daha bir sənəd - 24 dekabr 2024-cü il tarixli Fərman başqa məsələlərlə yanaşı, “Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə”də dəyişiklik edilməsini nəzərdə tutur. Belə ki, Əsasnamənin 8.5-2-ci bəndində “hesabat” sözü “məlumat” sözü ilə əvəz edilir.

Prezident İlham Əliyevin imzaladığı daha bir sənəd “Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanında və “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə” Fərmandır.

Sənəddə “Respublika Qan Bankı” publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 16 iyul tarixli 151 nömrəli Fərmanının icrası ilə əlaqədar qərara alınıb ki, “Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanının 2-ci hissəsində “Mərkəzi Qan Bankının Gəncə bölməsi, Mərkəzi Qan Bankının Şəki bölməsi, Mərkəzi Qan Bankının Quba bölməsi, Mərkəzi Qan Bankının Sumqayıt bölməsi, Mərkəzi Qan Bankının Lənkəran bölməsi, Mərkəzi Qan Bankının Bərdə bölməsi, Mərkəzi Qan Bankının Şirvan bölməsi, Mərkəzi Qan Bankının Mingəçevir bölməsi” sözləri “Respublika Qan Bankı (Respublika Qan Bankının Gəncə, Şəki, Quba, Sumqayıt, Lənkəran, Bərdə, Şirvan və Mingəçevir bölmələri” sözləri ilə əvəz edilsin.

Həmçinin dövlət başçısının 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın “Dövlət Proqramına dair Tədbirlər Planı” hissəsinin 2.5.16-cı yarımbəndində (hər dörd halda) “Mərkəzi” sözü “Respublika” sözü ilə əvəz olunub.

Dəyişiklik edilən daha bir sənəd “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsi”dir. Prezident İlham Əliyevin bu barədə verdiyi Fərmana görə, Nizamnamənin 4.7.8-1-ci yarımbəndindən “Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanının 3.6-cı bəndi nəzərə alınmaqla” sözləri çıxarılıb.




## «Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyətinə məxsus «Embraer 190» tipli sərnişin təyyarəsinin Bakı-Qroznı (Rusiya Federasiyası) reysini yerinə yetirərkən qəzaya uğraması səbəblərini araşdırmaq üçün Dövlət Komissiyasının yaradılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

2024-cü il dekabrın 25-də Heydər Əliyev Beynəlxalq Aeroportundan saat 07:56-da havaya qalxan və Bakı-Qroznı reysini yerinə yetirən “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinə məxsus “Embraer 190” təyyarəsinin Qazaxıstan Respublikasının Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı və xəsarət alanlar olmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, baş vermiş hadisənin səbəblərini araşdırmaq və müvafiq tədbirlər görmək məqsədilə **qərara alıram:**

**1.** 2024-cü il dekabrın 25-də baş vermiş təyyarə qəzasının səbəblərini araşdırmaq və müvafiq tədbirlər görmək məqsədilə aşağıdakı tərkibdə Dövlət Komissiyası yaradılsın:

Dövlət Komissiyasının sədri

Əli Əsədov - Azərbaycan Respublikasının Baş naziri

Dövlət Komissiyasının üzvləri:

Şahin Mustafayev - Azərbaycan Respublikası Baş nazirinin müavini

Rəşad Nəbiyev - Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri

Samir Rzayev - “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin prezidenti

Ceyhun Bayramov - Azərbaycan Respublikasının xarici işlər naziri

Kamran Əliyev - Azərbaycan Respublikasının Baş prokuroru

Vilayət Eyvazov - Azərbaycan Respublikasının daxili işlər naziri

Əli Nağıyev - Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi

Kəmaləddin Heydərov - Azərbaycan Respublikasının fövqəladə hallar naziri

Teymur Musayev - Azərbaycan Respublikasının səhiyyə naziri

Sahil Babayev - Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri

Arif Məmmədov - Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin direktoru.

**2. Dövlət Komissiyası:**

2.1. baş vermiş qəzanın səbəblərini qısa müddətdə araşdırıb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. qəza nəticəsində həlak olmuş və xəsarət almış şəxslərin ailələrinə müvafiq yardım göstərilməsini təmin etsin;

2.3. qəza nəticəsində həlak olmuş və xəsarət almış xarici ölkə vətəndaşları ilə bağlı məsələləri həll etsin;

2.4. Dövlət Komissiyasının fəaliyyəti barədə ictimaiyyətə mütəmadi məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 25 dekabr 2024-cü il*

# «Elektron hökumət» portalına dərmanlarla bağlı iki informasiya resursu qoşulacaq



**“Dərman vasitələrinin dövlət reyestri” və “Dərman vasitələrinin təqib və izləmə sistemi” “Elektron hökumət” portalına qoşulacaq. Bununla bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli Qərarı ilə təsdiq edilmiş 1 nömrəli əlavəsinə - “Elektron hökumət” portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı”na müvafiq bəndlər əlavə olunub.**

Bu barədə Baş nazir Əli Əsədovun imzaladığı “Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Elektron hökumət” portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı”nın və “İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin “Elektron hökumət” portalına qoşulması üçün Texniki Tələblər”in təsdiq edilməsi haqqında” 2014-cü il 1 may tarixli 118 nömrəli və “Dövlət və bələdiyyə tərəfindən yaradılan tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi haqqında” 2016-cı il 14 mart tarixli 125 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə” Qərarda bildirilir ki, qərar Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 3 iyun tarixli 81 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə qəbul edilib.

Həmçinin “Dövlət və bələdiyyə tərəfindən yaradılan tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi”nin 3-cü hissəsində bir sıra dəyişikliklər edilib. Belə ki, 3.1.9-cu yarımbənddə “dezinfeksiya vasitələrini, immunobioloji preparatlar istifadə təlimatlarına və farmakopeya məqalələrinə” sözləri “tibb vasitələrini, dərman maddələrini, immunobioloji preparatları və tibb müəssisələri üçün qablaşdırılmış dərman vasitələrini istifadə təlimatlarına, farmakopeya məqalələrinə və klinik protokola” sözləri ilə əvəz olunub. 3.1.9-1-ci yarımbənddə “dərman vasitəsinin” sözlərindən sonra “və dərman maddəsinin” sözləri əlavə edilib, “dərman vasitələrinin” sözləri “onların” sözü ilə əvəz olunub. 3.1.9-2-ci yarımbəndə birinci halda “dərman vasitələrinin” sözlərindən sonra “və dərman maddələrinin” sözləri əlavə edilib, ikinci halda isə “dərman vasitələrinin” sözləri “onların” sözü ilə əvəz olunub. 3.1.11-ci yarımbənddə “dezinfeksiya vasitələrinin” sözləri “tibb vasitələrinin, dərman maddələrinin və” sözləri ilə əvəz edilib. 3.2.1-ci yarımbəndə “dərman vasitələrindən” sözlərindən sonra “və dərman maddələrindən” sözləri əlavə olunub.

# Nazirlər Kabineti TƏBİB-lə bağlı qərarlar qəbul etdi

**Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin ““Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin Nizamnaməsi”nin təsdiq edilməsi haqqında” 2023-cü il 1 may tarixli 2130 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə “Dövlət və bələdiyyə tərəfindən yaradılan tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında Qərar qəbul edib.**

Belə ki, Nazirlər Kabinetinin 2016-cı il 14 mart tarixli 125 nömrəli Qərarı ilə təsdiq edilmiş həmin Nümunəvi Nizamnamənin 1.5-ci bəndin birinci cümləsinə “orqanın” sözündən sonra “(qurumun)” sözü əlavə olunub. 4.1.1-ci yarımbənd ləğv edilib. 5.1-ci bənddə “orqanın rəhbəri” sözləri “orqan (qurum)” sözləri ilə, 5.2-ci bəndin birinci cümləsində “orqanlarının rəhbərləri” sözləri “orqanları, yaxud dövlət qurumu” sözləri ilə, 5.3-cü bənddə “orqanın rəhbəri” sözləri “orqan” sözü ilə əvəz olunub. 5.5.6-cı yarımbəndə “kollegiyasının” sözündən sonra “və ya Müşahidə Şurasının iclasının” sözləri, “kollegiyanın” sözündən sonra “və ya Müşahidə Şurasının iclasının” sözləri əlavə edilib. 5.5.10-cu yarımbənddə “orqanın rəhbərinə” sözləri “orqana” sözü ilə, 5.6.6-cı yarımbənddə “orqanın rəhbərinin” sözləri “orqanın” sözü ilə, 5.7-ci bənddə “orqanın rəhbəri” sözləri “orqan” sözü ilə əvəz olunub.

Baş nazir Əli Əsədov Nazirlər Kabinetinin TƏBİB-lə bağlı daha bir qərarını - “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinin Siyahısı”nda dəyişiklik edilməsi haqqında Qərar imzalayıb.

Nazirlər Kabinetinin 2019-cu il 12 aprel tarixli 163 nömrəli Qərarı ilə təsdiq edilmiş bu siyahının 3-cü hissəsində “Azərsutikinti” Xəstəxanası” sözləri “Nizami Tibb Mərkəzi” sözləri ilə, “Neyrocərrahlıq” sözü “Respublika Neyrocərrahiyyə” sözləri ilə əvəz edilib.

Sənədə “6.5. Yeni Klinika” məzmununda 6.5-ci bənd, “58.1-1. Siyəzən Rayon Mərkəzi Xəstəxanası” məzmununda 58.1-1-ci bənd əlavə olunub.

Siyahının 7-ci hissəsində “6 nömrəli Birləşmiş Şəhər Xəstəxanası” sözləri “Binəqədi Tibb Mərkəzi” sözləri ilə, “2 nömrəli Şəhər Klinik Xəstəxanası” sözləri “Xətai Tibb Mərkəzi” sözləri ilə, “3 nömrəli Şəhər Klinik Xəstəxanası” sözləri “Sabunçu Tibb Mərkəzi” sözləri ilə, “5 nömrəli Şəhər Klinik Xəstəxanası” sözləri “Nərimanov Tibb Mərkəzi” sözləri ilə əvəz edilib.

# Nazirlər Kabineti qan xidməti müəssisələri ilə bağlı qərarlar qəbul etdi

**Azərbaycan Respublikası Nazirlər Kabineti özünün 2006-cı il 28 yanvar tarixli 26 nömrəli Qərarı ilə təsdiq edilmiş “Qanın, qan komponentlərinin tədarükü, emalı, saxlanması və bölüşdürülməsi ilə məşğul olan qan xidməti müəssisələrinin (qan banklarının) Siyahısı”nda dəyişiklik edilməsi haqqında Qərar qəbul edib.**

Sənədə əsasən, həmin siyahı yeni redaksiyada verilib. Belə ki, siyahıya Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan qurumlardan Respublika Qan Bankı (RQB) üzrə RQB-nin Gəncə, Şəki və Quba bölmələri, Milli Onkologiya Mərkəzinin, Milli Hematologiya və Transfuziologiya Mərkəzinin, Azərbaycan Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun, Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin və Bakı Sağlamlıq Mərkəzinin qanköçürmə şöbələri daxildir.

Azərbaycan Respublikasının Xüsusi Tibb Xidmətinin tabeliyində olan tibb müəssisələrindən siyahıya Mərkəzi Klinik Xəstəxananın qanköçürmə şöbəsi salınıb.

Həmçinin Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyində olan qurumlardan Bakı şəhəri üzrə Akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının, Akademik Mirməmməd Cavadzadə adına Respublika Kliniki Uroloji Xəstəxanasının, Respublika Neyrocərrahiyyə Xəstəxanasının, Mərkəzi Neftçilər Xəstəxanasının, Yeni Klinikanın, Kliniki Tibbi Mərkəzin, Ə.D.Məlikov adına Binəqədi Tibb Mərkəzinin, M.Ə.Əfəndiyev adına Xətai Tibb Mərkəzinin, Nərimanov, Nizami, Sabunçu Tibb Mərkəzlərinin qanköçürmə şöbələri siyahıda yer alıb.

Sumqayıt şəhəri üzrə TƏBİB-in tabeliyindəki Sumqayıt 1 nömrəli Şəhər Xəstəxanasının qanköçürmə şöbəsi siyahıya daxil edilib. Burada həmçinin Şirvan və Mingəçevir Şəhər Mərkəzi Xəstəxanalarının, Ağdam, Ağdaş, Ağcabədi, Ağsu, Ağstafa, Astara, Balakən, Beyləqan, Bərdə, Biləsuvar, Cəlilabad, Şabran, Goranboy, Göyçay, Hacıqabul, Xaçmaz, Göygöl, İmişli, İsmayıllı, Kürdəmir, Qazax, Qax, Qəbələ, Qobustan, Qusar, Lerik, Lənkəran, Masallı, Neftçala, Oğuz, Saatlı, Sabirabad, Salyan, Siyəzən, Şamaxı, Şəmkir, Tovuz, Tərtər, Ucar, Yevlax, Zaqatala və Zərdab Rayon Mərkəzi Xəstəxanalarının qanköçürmə şöbələri yer alıb.

Naxçıvan Muxtar Respublikası üzrə siyahıya daxil edilən müəssisələr Qan Bankı və Qan köçürmə Mərkəzi, Naxçıvan Muxtar Respublika Xəstəxanasının, Naxçıvan Sağlamlıq Mərkəzinin, Naxçıvan Muxtar Respublikası Perinatal Mərkəzinin, eləcə də Şərur və Culfa Regional Tibb Mərkəzlərinin qanköçürmə kabinələridir.

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov “Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Hemofiliya və talassemiya irsi qan xəstəlikləri olan şəxslərin registrinin yaradılması və aparılması Qaydası”nın təsdiq edilməsi haqqında” 2005-ci il 26 dekabr tarixli 241 nömrəli və “Hemofiliya və talassemiya irsi qan xəstəlikləri olan şəxslərə göstərilən tibbi yardımın həcminin və Qaydasının, qan, qan komponentləri və dərman preparatlarının, qan komponentləri hazırlamaq üçün vasitələrin Siyahısının və miqdarı”nın təsdiq edilməsi haqqında” 2005-ci il 29 dekabr tarixli 242 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə” Qərar da imzalayıb.

Sənədə əsasən, “Hemofiliya və talassemiya irsi qan xəstəlikləri olan şəxslərə göstərilən tibbi yardımın Qaydası”nın 1-ci hissəsində “Gəncə və Şəki rayonlararası qanköçürmə mərkəzlərinin” sözləri “Respublika Qan Bankının Gəncə və Şəki bölmələrinin” sözləri ilə əvəz edilib. Qərarlarda həmçinin texniki dəyişikliklər olunub.

Nazirlər Kabinetinin qəbul etdiyi daha bir Qərar “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 3 noyabr tarixli 182 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı”nda dəyişiklik edilməsi haqqında” adlanır.

Bu sənədə əsasən, Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Respublika Qan Bankı” publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 16 iyul tarixli 151 nömrəli Fərmanının 4-cü hissəsinin icrasını təmin etmək məqsədilə qərara alınıb ki, adı çəkilən siyahıda I bölmənin 1-1.2-1-1.9-cu bəndləri ləğv edilsin.

Həmçinin “Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı”nın III bölməsinə aşağıdakı məzmunda 6-cı hissə əlavə edilib:

“6. Respublika Qan Bankı

6.1. Respublika Qan Bankının Gəncə bölməsi

6.2. Respublika Qan Bankının Şəki bölməsi

6.3. Respublika Qan Bankının Quba bölməsi

6.4. Respublika Qan Bankının Sumqayıt bölməsi

6.5. Respublika Qan Bankının Lənkəran bölməsi

6.6. Respublika Qan Bankının Bərdə bölməsi

6.7. Respublika Qan Bankının Şirvan bölməsi

6.8. Respublika Qan Bankının Mingəçevir bölməsi”.

# Nazirlər Kabineti rezidentura təhsili ilə bağlı qərarlar qəbul etdi

Baş nazir Əli Əsədov “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 18 mart tarixli 50 nömrəli Qərarı ilə təsdiq edilmiş “Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları”nda dəyişiklik edilməsi haqqında” Qərar imzalayıb.

Sənədə əsasən, adı çəkilən qaydalarda bir sıra dəyişikliklər edilib. Belə ki, onun 1.4-cü bəndi aşağıdakı redaksiyada verilir:



“Rezidentura təhsili Azərbaycan Respublikası Nazirlər Kabinetinin ali təhsilin rezidentura səviyyəsi üzrə müəyyən etdiyi ixtisasların təsnifatına uyğun olaraq həkim-mütəxəssis hazırlığının ixtisaslaşmalar üzrə həyata keçirilməsini təmin edir. Hər bir ixtisas üzrə ixtisaslaşmalar həmin ixtisasın təhsil proqramında sahələr üzrə müəyyən olunur”.

Qaydaların 3.2-ci bəndində “bu Qaydaların əlavəsi” sözləri “müvafiq təhsil proqramları” sözləri ilə əvəz edilib.

Qaydalara əlavə - “Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisaslar üzrə təhsilin müddəti” ləğv olunub.

Nazirlər Kabinetinin qəbul etdiyi “Ali təhsilin bakalavriat, əsas (baza ali) tibb təhsili, magistratura və rezidentura səviyyələri üzrə ixtisasların təsnifatının təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı”nın, “Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisasların Təsnifatı”nın və “Azərbaycan Respublikası Nazirlər Kabinetinin qüvvədən düşmüş bəzi qərarlarının Siyahısı”nın təsdiq edilməsi haqqında” 2011-ci il 14 iyun tarixli 95 nömrəli, “Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı”nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Ali təhsilin bakalavriat səviyyəsi ixtisasları-nın (proqramlarının) Təsnifatı”nın təsdiq edilməsi haqqında” 2009-cu il 12 yanvar tarixli 8 nömrəli, “Ali təhsilin bakalavriat və magistratura səviyyələri üzrə bəzi ixtisasların (ixtisaslaşmaların) Təsnifatı”nın təsdiq edilməsi haqqında” 2011-ci il 31 oktyabr tarixli 177 nömrəli və “Ali təhsil pilləsində tibb təhsilinin əsas təhsili üzrə ixtisasların Təsnifatı”nın təsdiq edilməsi və “Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının) Təsnifatı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 12 yanvar tarixli 8 nömrəli Qərarında dəyişikliklər edilməsi barədə” 2012-ci il 24 dekabr tarixli 314 nömrəli qərarlarında dəyişikliklər edilməsi haqqında” 2019-cu il 11 fevral tarixli 45 nömrəli qərarlarında dəyişiklik edilməsi və “Ali təhsilin magistratura səviyyəsi üzrə bəzi ixtisasların (ixtisaslaşmaların) Təsnifatı”nın təsdiq edilməsi haqqında” 2011-ci il 31 oktyabr tarixli 177 nömrəli Qərarının ləğv edilməsi barədə” Qərarına görə isə “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.2-ci bəndinə əsasən, ali təhsilin bakalavriat, əsas (baza ali) tibb, magistratura və rezidentura səviyyələri üzrə ixtisasların təsnifatları təsdiq edilib.

“Ali təhsilin əsas (baza ali) tibb təhsili səviyyəsi üzrə ixtisasların Təsnifatı”na hərbi tibb (6100001), stomatologiya (6100002) və tibb (6100003) ixtisasları daxildir.

“Ali təhsilin rezidentura səviyyəsi üzrə ixtisasların Təsnifatı”na görə isə rezidenturada 44 ixtisas üzrə mütəxəssis hazırlığı həyata keçiriləcək.

Bu Qərara əsasən, əvvəllər bu sahədə qəbul olunmuş bəzi sənədlərin qüvvədən düşdüyü bəyan edilib.

# Milli Məclisdə səhiyyə ilə bağlı qanun layihələri müzakirə olundu

**Dekabr ayı ərzində Milli Məclisin payız sessiyasının bir neçə plenar iclasında səhiyyə ilə əlaqəli qanun layihələrinə baxılıb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, ilk iclasda Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi ikinci oxunuşda təqdim edilib. Məcəlləyə edilən dəyişikliklərdə güzəştlərin miqyasının və dairəsinin genişləndirilməsi, o cümlədən tibb turizminin inkişafı məqsədilə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə göstərilən tibbi xidmətlərə görə tax-free rejimində ƏDV-nin geri qaytarılması və digər güzəştlər nəzərdə tutulub. Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev “Sosial sığorta haqqında”, “Tibbi sığorta haqqında” və “İşsizlikdən sığorta haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin (ikinci oxunuş) mahiyyəti barədə məlumat verib.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov dəyişikliklərlə bağlı rəhbərlik etdiyi komitənin rəyini açıqladıqdan sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Növbəti iclasda Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) təqdim olunub. Milli Məclisin müzakirəsinə təqdim edilən bir sıra qanun layihələrinin və müxtəlif vaxtlarda qəbul olunmuş qanunların icrası məqsədilə hazırlanmış sənəddə həmin qanunların pozulması ilə bağlı məsuliyyətin yaradılması normaları nəzərdə tutulur. Qeyd olunub ki, həmin qanunların, o cümlədən "Dərman vasitələri haqqında" və digər qanunların icrası və bu qanunlara qəbul edilmiş dəyişikliklər Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik və əlavələrin olunmasını zəruri edir. Bunu nəzərə alaraq, layihədə qadağanedici normalar dispozisiya formasında Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində öz əksini tapıb və cinayət əməlinə və inzibati xətaya görə müvafiq olaraq sanksiyalar təklif olunub.

Müzakirələr zamanı vitse-spiker Ziyafət Əsgərov, komitə sədrləri Əli Hüseynli və Əhliman Əmiraslanov qaldırılan məsələlərə aydınlıq gətiriblər.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Milli Məclisin növbəti plenar iclasında Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Miqrasiya Məcəlləsində, “Əhalinin sağlamlığının qorunması haqqında”, “Yol hərəkəti haqqında”, “Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında”, “Tibbi sığorta haqqında”, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında”, “Daşınmaz əmlakın dövlət reyestri haqqında”, “Ünvanlı dövlət sosial yardımı haqqında”, “Sosial müavinətlər haqqında”, “Əmək pensiyaları haqqında”, “Təhsil haqqında”, “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında”, “İcbari sığortalar haqqında”, “Lisenziyalar və icazələr haqqında”, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” və “Məşğulluq haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda təqdim edilib.



Bildirilib ki, layihədə adı çəkilən qanunlarda əmək və əhalinin sosial müdafiəsi, miqrasiya, səhiyyə, təhsil, yol hərəkətinin təşkili, iqtisadiyyat sahələrinə aid müvafiq sənədlərdə göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi (EHİS) üzərindən təqdim edilə bilməsi və onların EHİS üzərindən təqdim edilməsinin həmin sənədlərin təqdim edilməsinə bərabər tutulması imkanı ilə bağlı müddəalar təklif olunub.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Elşən Musayev, İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov, Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov sənəd barədə bu komitələrin rəylərini təqdim etdikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Növbəti plenar iclasda “Sosial sığorta haqqında”, “Tibbi sığorta haqqında” və “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsinin mahiyyəti barədə məlumat verilib. Bildirilib ki, layihədə Vergi Məcəlləsinə təklif olunan dəyişikliklərə uyğunlaşdırma xarakterli düzəlişlər edilib.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov dəyişikliklərlə bağlı rəhbərlik etdiyi komitənin müsbət rəyini açıqladıqdan sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Büdcə zərfinə daxil olan bütün qanun layihələrinin üçüncü oxunuşda qəbul edildiyini bildirən Milli Məclisin sədri Sahibə Qafarova çıxış üçün Azərbaycan Respublikasının Baş naziri Əli Əsədova söz verib.

Baş nazir Əli Əsədov 2024-cü ildə Vətənimiz üçün siyasi müstəvidə çox önəmli olan tarixi hadisələrdən danışıb. O, diqqətə çatdırıb ki, 2025-ci ildə dövlət büdcəsinin gəlirləri təxminən 38,4 milyard manat, xərcləri isə 41,4 milyard manat proqnoz edilir. Dövlət büdcəsi kəsirinin ÜDM-ə nisbəti 2,4%-dir. Büdcə layihəsi müasir Azərbaycan tarixində ən böyük büdcədir. O qeyd edib ki, ümumilikdə bütün istiqamətlər üzrə sosialyönlü xərclər dövlət büdcəsi xərclərinin 40%-ni üstələyir.

Baş nazir məlumat verib ki, səhiyyə sahəsində aparılan davamlı islahatların nəticəsində cari ildə Tibbi Xidmətlər Zərfi çərçivəsində göstərilmiş xidmətlərin sayında 21% artım olmuşdur.

*(Davamı 5-ci səhifədə)*

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutunu və Elmi Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunu ziyarət edib.**

# Leyla Əliyeva Pediatriya və Mamalıq və Ginekologiya institutlarını ziyarət edib





Tibb ocaqlarının fəaliyyəti ilə tanış olan Leyla Əliyeva burada müalicə alan uşaqların valideynləri ilə görüşüb.

Səhiyyə naziri Teymur Musayev Heydər Əliyev Fondunun vitse-prezidentinə bu elmi tədqiqat institutlarında yaradılmış şərait barədə məlumat verib.

Leyla Əliyeva tərəfindən hər iki tibb müəssisəsinə yüksəktezlikli süni tənəffüs cihazları, küvəzlər və digər müasir tibbi avadanlıqlar hədiyyə olunub.






# Milli Məclisdə səhiyyə ilə bağlı qanun layihələri müzakirə olundu

*(Əvvəli 4-cü səhifədə)*

Gündəliyin sonuncu məsələsi Cinayət Məcəlləsində, Miqrasiya Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Psixiatriya yardımı haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin müzakirəsi olub.

Məsələ ilə bağlı Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev məlumat verib. Bildirilib ki, layihəyə əsasən, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanuna "tibbi şəhadətləndirilmə", "elektron kabinet" və "çağırış vərəqəsi" anlayışları əlavə edilir. Təklif olunan dəyişikliklərdə vətəndaşların hərbi vəzifələrinin icrası ilə bağlı xidmətlərin müvafiq informasiya sistemi vasitəsilə həyata keçirilməsi və hərbi vəzifələrinin icrası ilə əlaqədar vətəndaşlar tərəfindən elektron kabinetlərin yaradılması nəzərdə tutulub. Bundan başqa, layihədə aidiyyəti dövlət orqanları arasında tibbi müayinənin nəticələrinin elektron əldə edilməsi, müvafiq dövlət orqanlarının sistemlərinin qarşılıqlı inteqrasiyası ilə bağlı müddəalar əks olunub.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli və Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov layihə ilə bağlı komitələrinin müsbət rəylərini diqqətə çatdırıblar. Deputatlar Vüqar Bayramov və Aydın Hüseynov dəyişikliklərə dair fikirlərini bildirib, qeydlərini səsləndiriblər. Komitə sədri Arzu Nağıyev qaldırılan məsələlərə aydınlıq gətirəndən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Milli Məclisin növbəti plenar iclasında Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Miqrasiya Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Psixiatriya yardımı haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov bu komitələrin layihəyə dair müsbət rəy verdiklərini söyləyiblər.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Payız sessiyasının builki son plenar iclasında həmin qanun layihəsinə üçüncü oxunuşda baxılıb. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin və Səhiyyə komitəsinin məsələ barədə müsbət rəyi səsləndirildikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

İclasda Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Miqrasiya Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Yol hərəkəti haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Tibbi sığorta haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Təhsil haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "İcbari sığortalar haqqında", "Lisenziyalar və icazələr haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsinə dair məlumat təqdim edilib.

Bildirilib ki, layihədə adı çəkilən qanunlarda əmək və əhalinin sosial müdafiəsi, miqrasiya, səhiyyə, təhsil, yol hərəkətinin təşkili, iqtisadiyyat sahələrinə aid müvafiq sənədlərdə göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi (EHİS) üzərindən təqdim edilə bilməsi və onların EHİS üzərindən təqdim edilməsinin həmin sənədlərin təqdim edilməsinə bərabər tutulması imkanı ilə bağlı müddəalar təklif olunur.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin, Səhiyyə komitəsinin, İnsan hüquqları komitəsinin, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin, Elm və təhsil komitəsinin sənəd barədə müsbət rəyləri təqdim olunduqdan sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

# Təyyarə qəzasının səbəblərinin araşdırılması üzrə Dövlət Komissiyasının iclası keçirilib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə təyyarə qəzasının səbəblərinin araşdırılması üçün yaradılmış Dövlət Komissiyasının iclası keçirilib.**

Komissiyanın sədri Əli Əsədov Prezident İlham Əliyevin hadisə ilə bağlı araşdırmanı şəxsi nəzarətə götürdüyünü bildirib.

Dövlət Komissiyası bir sıra vacib və təxirəsalınmaz məsələləri, o cümlədən qəza nəticəsində xəsarət alanlara və yaralananlara zəruri yardım göstərilməsi ilə bağlı işləri nəzərdən keçirib. Həmin şəxslərə Qazaxıstan tərəfi ilə birlikdə tibbi yardım göstərilməsi üçün səhiyyə naziri Teymur Musayevə müvafiq tapşırıqlar verilib.

Qəza nəticəsində həlak olmuş şəxslərin identifikasiyası üzrə işlərin aparıldığı qeyd olunub. Xəsarət almış şəxslərin ailələri və yaxınları ilə zəruri işlərin aparılması istiqamətində təxirəsalınmaz tədbirlərin görülməsi ilə bağlı tapşırıq verilib.

Qeyd edilib ki, qəzaya uğramış təyyarənin sərnişinlərinin ailə üzvləri və yaxınları Heydər Əliyev Beynəlxalq Aeroportunda yaradılmış “Qaynar xətt” vasitəsilə müvafiq qaydada məlumatlandırılıb, onlara psixoloji və digər zəruri dəstək göstərilib.

Azərbaycan Respublikası Baş Prokurorluğunun qazaxıstanlı həmkarlarla birlikdə hadisənin başvermə səbəblərini araşdırdığı və cinayət işi üzrə istintaq apardığı bildirilib. İstintaqın gedişi haqqında ictimaiyyətin müntəzəm qaydada məlumatlandırılması ilə bağlı tapşırıq verilib.

Qəza nəticəsində xəsarət almış və hazırda Aktau şəhərində müalicəsi davam edən Azərbaycan vətəndaşlarının zərurət yarandıqca və həkimlərin razılığı əsasında ölkəmizə evakuasiyasının təşkili ilə əlaqədar müvafiq tədbirlərin görüldüyü bildirilib.

Xəsarət almış şəxslərə zəruri yardım göstərilməsi və bundan irəli gələn digər məsələlərin həlli ilə bağlı qazaxıstanlı həmkarlarla hökumət üzvləri səviyyəsində daimi sıx təmasların və birgə səylərin həyata keçirildiyi vurğulanıb. Komissiya üzvlərinə səlahiyyətləri üzrə müvafiq işlərin aparılması ilə bağlı tapşırıqlar verilib.

# Səhiyyə Nazirliyində UNICEF-in Azərbaycandakı nümayəndəsi ilə görüş keçirilib

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyində BMT-nin Uşaq Fondunun (UNICEF) ölkəmizdəki nümayəndəsi xanım Saca Faruq Abdullah ilə görüş keçirilib.**



Qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev Azərbaycan ilə UNICEF arasında əlaqələrin çoxşaxəli olduğunu vurğulayıb: «Ötən müddət ərzində səhiyyə, təhsil, ana və uşaqların sağlamlığının qorunması kimi müxtəlif istiqamətlərdə uğurlu layihələr həyata keçirilib».

Teymur Musayev Səhiyyə Nazirliyi tərəfindən Azərbaycanda ana və uşaq sağlamlığının qorunmasında xidmətlərin təkmilləşdirilməsi istiqamətində mühüm addımların atıldığını diqqətə çatdırıb. Nazir vaksin preparatlarının da Azərbaycana UNICEF xətti ilə gətirildiyini vurğulayıb.

Noyabrda Bakıda keçirilən COP29-un mahiyyətini qeyd edən nazir tədbir çərçivəsində Səhiyyə Nazirliyi və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən təşkil olunan «İqlim dəyişikliyinin sağlamlığa təsirlərinə hazırlıq və onlara cavab olaraq səhiyyə sahəsində kadr potensialının gücləndirilməsi» mövzusunda panel müzakirələrindən danışıb. Həmçinin Azərbaycan Tibb Universitetində (ATU) 20242025-ci tədris ilindən etibarən ATU-nun ikinci kurs tələbələrinə «İqlim dəyişikliyi və sağlamlıq» fənninin tədris olunduğu diqqətə çatdırılıb.

Çıxışının sonunda Azərbaycanın səhiyyə naziri gələcəkdə əməkdaşlığın daha da inkişaf etdiriləcəyinə əminliyini bildirib.

Öz növbəsində Saca Faruq Abdullah xatırladıb ki, BMT-nin Uşaq Fondu Azərbaycanda fəaliyyətə 1993-cü ildə başlayıb: «UNICEF uşaqlar üçün daha yaxşı gələcəyin qurulması və onların tam potensiallarının inkişaf etməsi üçün imkanların yaradılmasında Azərbaycan hökuməti ilə yaxından işləmək öhdəliyinə sadiqdir».

Azərbaycan ilə UNICEF arasında tərəfdaşlıq səviyyəsini yüksək qiymətləndirən Saca Faruq Abdullah 2021-2025-ci illər üzrə Əməkdaşlıq Proqramı çərçivəsində birgə fəaliyyətin qarşılıqlı əlaqələrin davam etdirilməsində mühüm rol oynadığını qeyd edib.

Sonda tərəflər prioritet istiqamətlər üzrə əməkdaşlıq məsələlərini müzakirə ediblər.

# Səhiyyə naziri təyyarə qəzasında xəsarət alan vətəndaşlarımızı ziyarət edib

**Səhiyyə naziri Teymur Musayev “Azərbaycan Hava Yolları” aviaşirkətinin təyyarəsinin Aktau yaxınlığında qəzaya uğraması nəticəsində xəsarət alan vətəndaşlarımızı ziyarət edib.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirildiyinə görə, nazir müalicə almaq məqsədilə Bakıya gətirilən yaralılar üçün yaradılan şərait və onların səhhəti ilə maraqlanıb.

Səhiyyə nazirinə məlumat verilib ki, yaralılara zəruri tibbi yardımın göstərilməsi üçün bütün lazımi tədbirlər görülüb, yüksəksəviyyəli müayinə-müalicə prosesi həyata keçirilir.





Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təyyarə qəzasının səbəblərinin araşdırılması üçün Dövlət Komissiyasının yaradıldığını vurğulayan nazir deyib: “Sərəncamla aidiyyəti dövlət qurumlarına, o cümlədən Səhiyyə Nazirliyinə müvafiq tədbirlər görmək üçün zəruri tapşırıqlar verilib. Qazaxıstanda baş verən təyyarə qəzasında yaralanan həmvətənlərimizə və digər zərərçəkənlərə dəstək məqsədilə Prezident İlham Əliyevin tapşırığı və Birinci vitse-prezident Mehriban Əliyevanın nəzarəti ilə geniştərkibli tibbi heyət dərhal hadisə yerinə göndərilib”.

Nazirin sözlərinə görə, həmin tibbi heyət artıq Bakıya qayıdıb. Yaralanan 14 Azərbaycan vətəndaşı Qazaxıstandan Vətənə gətirilib və Bakıdakı Yeni Klinika tibb müəssisəsində yerləşdirilib. İlkin müayinələrin nəticələrinə əsasən, onların vəziyyəti stabil və qənaətbəxşdir. Zərərçəkənlərin əksəriyyətinin yaxın günlərdə evlərinə buraxılması gözlənilir.

Səhiyyə naziri qeyd edib ki, qazaxıstanlı həmkarlara dəstək və müalicə proseslərinin tənzimlənməsi məqsədilə Bakıdan Aktauya 2 həkim və 2 tibb bacısından ibarət heyət göndəriləcək.

Sonda Teymur Musayev yaralıların tezliklə şəfa tapmasını və doğmalarına qovuşmasını arzulayaraq deyib: “Aviaqəzada xəsarət alan bütün Azərbaycan vətəndaşlarına Səhiyyə Nazirliyinin Sanator-Kurort Reabilitasiya Mərkəzində psixoloji və ehtiyac olduqda, tibbi reabilitasiya xidmətləri göstəriləcək”.

# Səhiyyə Nazirliyinin rəhbərliyi Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini yad edib



**Müstəqil Azərbaycanın inkişafında misilsiz xidmətləri olan görkəmli dövlət xadimi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anım günü münasibətlə Səhiyyə Nazirliyinin rəhbər şəxsləri Fəxri xiyabanda Ulu Öndərin əziz xatirəsini hörmət və ehtiramla anaraq, məzarı önünə gül dəstələri qoyublar.**

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla yad edilib, məzarı önünə tər çiçəklər düzülüb.

Ümummilli Lider Heydər Əliyev Azərbaycan səhiyyəsi və təhsilinə, bu sahənin işçilərinə, o cümlədən həkimlərə həmişə xüsusi diqqət və qayğı göstərib. Ölkəmizdə səhiyyənin inkişafı və tibbi kadrların hazırlanması məhz Ulu Öndərin adı ilə bağlıdır.

# Səhiyyə Nazirliyində Qvineya-Bisau nümayəndə heyəti ilə görüş keçirilib



**Azərbaycan Respublikası Səhiyyə Nazirliyində Qvineya-Bisau Respublikasının xarici işlər, beynəlxalq əməkdaşlıq və xaricdəki icmalar naziri Karlos Pinto Pereiranın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə həmçinin Qvineya-Bisaunun ətraf mühit naziri Viriato Kassama və digər rəsmi şəxslər iştirak ediblər.**

Qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlıq məsələlərinə toxunaraq, tibb sahəsində də əlaqələrin inkişafının vacibliyini vurğulayıb. Nazirin sözlərinə görə, bu istiqamətdə əməkdaşlıq beynəlxalq müstəvidə Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində həyata keçirilir.

Çıxışının sonunda Azərbaycanın səhiyyə naziri gələcəkdə ikitərəfli səhiyyə əməkdaşlığının da inkişaf etdiriləcəyinə əminliyini ifadə edib.

Öz növbəsində Karlos Pinto Pereira Qvineya-Bisaunun Azərbaycanla əlaqələrin inkişafına xüsusi önəm verdiyini bildirib: "Ölkələrimiz arasında 1992-ci ildən etibarən diplomatik əlaqələr qurulub. Bu müddət ərzində Qvineya-Bisau və Azərbaycan dövlətlərinin qarşılıqlı münasibətləri müsbət dinamika ilə inkişaf edir".

Görüşdə həmçinin Qvineya-Bisaudan olan tibb sahəsi üzrə mütəxəssislərin hazırlanmasına dəstək verilməsi və maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Səhiyyə Nazirliyində Qlobal Fondun portfolio meneceri ilə görüş keçirilib



**Azərbaycan Səhiyyə Nazirliyində QİÇS, Vərəm və Malyariya ilə mübarizə üzrə Qlobal Fondun portfolio meneceri Olqa Avdeyeva ilə görüş keçirilib.**

Qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev Azərbaycanın Qlobal Fondla əməkdaşlığa önəm verdiyini qeyd edib: "Səhiyyə Nazirliyinin Qlobal Fondun missiyaları ilə mütəmadi keçirilən görüşləri mövcud əlaqələrin daha da inkişafına böyük dəstək verir".

Nazirin sözlərinə görə, QİÇS, Vərəm və Malyariya ilə mübarizə üzrə Qlobal Fond 20 ilə yaxın müddət ərzində Azərbaycanda vərəm əleyhinə fəaliyyətin dəstəklənməsində yaxından iştirak edir. Hazırda Azərbaycanda Qlobal Fondun layihələri davamlı olaraq həyata keçirilir və ölkəmizin vərəmlə mübarizəsinə böyük töhfədir.

Teymur Musayev həmçinin ötən ilin mart ayında Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən Azərbaycanın "malyariyadan azad" ölkə kimi sertifikatlaşdırılmasını xatırladıb: "Malyariya ilə mübarizədə uğur həm də ÜST-nin aparıcı mövqe tutduğu tərəfdaşların uzun illər hərtərəfli dəstəyi sayəsində mümkün olub".

Sonda Teymur Musayev Azərbaycan Səhiyyə Nazirliyi ilə Qlobal Fond arasında səmərəli əməkdaşlığın daha da uğurla inkişaf etdiriləcəyinə əminliyini bildirib.

Öz növbəsində Olqa Avdeyeva Qlobal Fondun Azərbaycan Səhiyyə Nazirliyi ilə birgə bir sıra mühüm layihələrin icra olunduğunu vurğulayıb.

Azərbaycanın "malyariyadan azad" ölkə kimi sertifikatlaşdırılmasını yüksək qiymətləndirən Qlobal Fondun portfolio meneceri bu nailiyyətin səhiyyə işçilərinin davamlı fədakarlığı, həmçinin malyariya hallarının məqsədyönlü şəkildə qarşısının alınması, erkən aşkarlanması və müalicəsi sayəsində mümkün olduğunu bildirib.

Görüşdə həmçinin əməkdaşlığın mövcud vəziyyəti, potensial inkişaf imkanları və maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan Səhiyyə Nazirliyində Belçika səfiri ilə görüş keçirilib



**Azərbaycan Səhiyyə Nazirliyində Belçika Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Julyen de Frepon ilə görüş keçirilib.**

Qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev ölkələrimiz arasında tibb mütəxəssislərinin davamlı peşə təhsili sahəsində müasir metodiki və elmi-praktik təcrübə mübadiləsi üçün imkanların mövcudluğunu diqqətə çatdırıb. Teymur Musayev həmçinin tibb işçilərinin təcrübə mübadiləsi və bacarıqlarının təkmilləşdirilməsi üçün treninqlərin təşkilinin mümkünlüyünü qeyd edib. Nazirin sözlərinə görə, əczaçılıq sənayesində əməkdaşlıq potensialı da mövcuddur.

Öz növbəsində Julien de Frepon Azərbaycanın Səhiyyə Nazirliyi ilə əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduqlarını bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Səhiyyə Nazirliyinin elmi tədqiqat institutları və mərkəzlərinin illik fəaliyyəti təhlil edilib

**Səhiyyə Nazirliyinin tabeliyində olan elmi tədqiqat institutları və mərkəzlərinin rəhbərlərinin iştirakı ilə 2024-cü ilin yekunlarına və növbəti ildə həyata keçiriləcək tədbirlərə həsr olunan iclas keçirilib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, iclasda giriş sözü ilə çıxış edən səhiyyə naziri Teymur Musayev səhiyyə sisteminin inkişafının ölkəmizdə prioritet məsələlərdən olduğunu vurğulayıb: “Bu il ölkəmizdə səhiyyə infrastrukturunun daha da möhkəmləndirilməsi, göstərilən xidmət səviyyəsinin artırılması, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi və rəqəmsallaşdırma işlərinin genişləndirilməsi istiqamətində bir sıra zəruri addımlar atılıb. Prezident İlham Əliyevin müvafiq tapşırığına əsasən, ölkə səhiyyəsinin müasir tendensiyalara cavab verməsi və əhalinin tibb xidmətlərindən məmnunluq səviyyəsinin və əlçatanlığının daha da artırılması ilə bağlı sistemli işlər görülür”.

Nazir elektron sənəd dövriyyəsinə keçid, səhiyyə sistemində rəqəmsallaşdırma və innovativ texnologiyalarının daha geniş tətbiqi, işğaldan azad edilən ərazilərdə səhiyyə ocaqlarının inşası və digər istiqamətlərdə mühüm işlərin görüldüyünü bildirib: “Nazirlər Kabinetinin 2023-cü il aprelin 14-də verdiyi Sərəncama əsasən, ölkədə səhiyyə sahəsinin rəqəmsallaşdırılması çərçivəsində önəmli yeniliklərdən olan “Elektron Resept Sistemi” Səhiyyə Nazirliyi tərəfindən 2024-cü il mayın 1-dən etibarən istifadəyə verilib”.

Prezidentin müvafiq Fərmanı ilə Səhiyyə Nazirliyinin tabeliyində Respublika Qan Bankının yaradıldığını qeyd edən nazir deyib: “Dövlət başçısının imzaladığı sənədin icrası məqsədilə Respublika Qan Bankının Bakı şəhəri ilə yanaşı, ölkənin digər bölgələrində də fəaliyyətinin genişləndirilməsi prioritet məsələlərdəndir. Dövlət başçısının digər Fərmanı ilə 2023-cü il yanvarın 1-dən etibarən 9 elmi tədqiqat institutu və mərkəzi Səhiyyə Nazirliyinin tabeliyinə verilib. Həmin müddət ərzində qurumların maliyyələşdirilməsi və optimal idarəçilik prinsiplərinin qurulması istiqamətində mühüm addımlar atılıb”.



Qarşıda duran vəzifələr və fəaliyyət istiqamətlərindəki çatışmazlıqlar təhlil edilərək, gələcək üçün sistemli yanaşmanın tətbiqinə imkan verən müasir idarəçilik strategiyası, əhali üçün daha əlçatan və mütərəqqi tibbi xidmətlər platformasının hazırlanmasının vacibliyi qeyd olunub. Həmçinin nazirlik tərəfindən istifadəyə verilən “Elektron Resept Sistemi”ndən daha geniş istifadə və nazirliyin tabeliyindəki bütün qurumlarda birmənalı bu sistemə keçidlə bağlı tapşırıqlar verilib.

Səhiyyə Nazirliyinin tabeliyində olan K.Y.Fərəcova adına Elmi Tədqiqat (ET) Pediatriya İnstitutunun direktoru Aynur Poluxova, Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin direktoru Rauf Ağayev, Akademik C.M.Abdullayev adına ET Kardiologiya İnstitutunun direktoru Gülnaz Dadaşova, ET Travmatologiya və Ortopediya İnstitutunun direktoru Rüstəm Talışinski, ET Ağciyər Xəstəlikləri İnstitutunun direktoru İradə Axundova, ET Mamalıq və Ginekologiya İnstitutunun direktoru Cəmilə Qurbanova, ET Tibbi Bərpa İnstitutunun direktoru Mətanət Əfəndiyeva, V.Y.Axundov adına ET Tibbi Profilaktika İnstitutunun direktoru Adil Allahverdiyev və Milli Hematologiya və Transfuziologiya Mərkəzinin direktoru Sərdar Əsədovun hesabatları dinlənilib.

Çıxış edənlər bildiriblər ki, il ərzində tibb ocaqları bir sıra yenilik və uğurlara imza atıb, habelə müəssisələr daxilində əməliyyatxana və şöbələr əsaslı təmir olunub. Hesabat dövründə “Böyük Qayıdış” proqramı çərçivəsində Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə nazirliyin tabeliyindəki qurumlar işğaldan azad olunan ərazilərə köçürülən vətəndaşlar arasında sağlam həyat tərzinin təşviqi ilə bağlı maarifləndirici aksiyalar və müxtəlif istiqamətlərdə kompleks tibbi müayinələr aparıblar.

Diqqətə çatdırılıb ki, cari ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Səhiyyə Nazirliyinin K.Y.Fərəcova adına Elmi Tədqiqat Pediatriya və Elmi Tədqiqat Mamalıq və Ginekologiya institutlarını ziyarət edib, hər iki tibb müəssisəsinə yüksəktezlikli süni tənəffüs cihazları, küvəzlər və digər müasir tibbi avadanlıqlar hədiyyə edib. Heydər Əliyev Fondunun vitse-prezidenti həmçinin nazirliyin Milli Hematologiya və Transfuziologiya Mərkəzini ziyarət edib. O, tibb ocaqlarında yaradılan şəraitlə tanış olub, orada müalicə alan uşaqların valideynləri ilə görüşüb.

Bundan əlavə, oktyabrda Şuşa şəhərində Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi ölkələrin səhiyyə nazirlərinin IV iclası çərçivəsində TDT-nin üzv və müşahidəçi ölkələrinin səhiyyə nazirliklərinin elmi tədqiqat institutları və mərkəzləri arasında onkologiya, kardiologiya, oftalmologiya, pediatriya, travmatologiya və ortopediya sahələrinə aid bir sıra anlaşma memorandumları imzalanıb. Bu sənədlər tərəflər arasında intensiv əlaqələr qurmaqla, elmi tədqiqatların aparılması, həmin ixtisaslarda fəaliyyət göstərən tibb işçilərinin bilik və bacarıqlarının təkmilləşdirilməsi, kadr mübadiləsi, faydalı əməkdaşlığın təşviqi və gücləndirilməsini ehtiva edir.

Eyni zamanda, qeyd olunub ki, bu il I Türk Dövlətləri Kardioloji Qurultayı, ET Ağciyər Xəstəlikləri İnstitutunun 80 illik yubileyinə və Sümük İliyi Transplantasiyasının 10 illiyinə həsr olunan beynəlxalq elmi-praktik konfrans keçirilib. Tədbirlər Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurası tərəfindən akkreditasiya olunub. Bundan əlavə, elmi tədqiqat institutları və mərkəzlərinin mütəxəssislərinin məqalələri bir sıra tanınmış beynəlxalq nəşrlərdə dərc edilib.

Təqdimatlardan sonra nazir əldə olunan nailiyyətlərlə yanaşı, problemlərin də mövcudluğunu diqqətə çatdırıb, elmi tədqiqat institutları və mərkəzlərində müasir yanaşmalara əsaslanan korporativ idarəetmə mexanizmlərinin tətbiqinin vacibliyini qeyd edib.

İclasın yekununda qurum rəhbərlərinə müvafiq tapşırıqlar verilib.

# Qanunsuz tibbi fəaliyyətə şərait yaradılması müqabilində rüşvət almaqda şübhəli bilinən vəzifəli şəxslər ifşa edilib

Əhalinin sağlamlığının qorunması və tibbi yardımın göstərilməsi sahəsində qanunsuz halların qarşısının alınması, habelə aşkar edilmiş belə faktlara qarşı mübarizə istiqamətində Azərbaycan Respublikasının Baş Prokurorluğu və Səhiyyə Nazirliyinin aidiyyəti qurumları tərəfindən kompleks, sistemli və ardıcıl tədbirlərin görülməsi davam etdirilir.

Baş Prokurorluğun və Səhiyyə Nazirliyinin bu münasibətlə yaydığı birgə məlumatda bildirilir ki, bununla bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində Səhiyyə Nazirliyinin İnsan resursları, elm və təhsil şöbəsinin müdiri Rüstəmova Səidə Nurəddin qızının qabaqcadan əlbir olduğu, əvvəllər həmin nazirliyin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin Akkreditasiya şöbəsinin müdiri vəzifəsində işləmiş Cabbarova Lətafət Kərim qızı və korrupsiya şəbəkəsinin digər üzvləri ilə birgə qanunsuz olaraq həkimlərin ixtisaslarının dəyişdirilməsi, onların tibbi və ya əczaçılıq fəaliyyəti ilə, o cümlədən plastik cərrahiyyə fəaliyyəti ilə məşğul olma hüququ verən sertifikasiya imtahanlarına buraxılmasına icazələrin verilməsi, saxta məqbul qiymətləndirmə ilə müvafiq sertifikatlarla təmin olunması və digər bu kimi sui-istifadə hallarına yol verməsi müqabilində çoxsaylı şəxslərdən müxtəlif məbləğlərdə rüşvət almalarına əsaslı şübhələr müəyyən edilib.

Əməliyyat-axtarış tədbirləri ilə bir sıra vəzifəli şəxslərin xidməti otaqlarında aparılmış axtarışlarla iş üçün əhəmiyyət kəsb edən sübutlar əldə edilərək götürülüb.

Həmin faktlarla bağlı Baş İdarədə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 311.3.1, 311.3.2, 311.3.3 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən təkrarən külli miqdar rüşvət alma), 308.2 (ağır nəticələrə səbəb olmaqla vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb.

Toplanmış sübutlar əsasında Səidə Rüstəmova və Lətafət Cabbarovaya Cinayət Məcəlləsinin müvafiq maddələri ilə ittiham elan edilib, istintaq orqanının vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında Binəqədi Rayon Məhkəməsinin qərarı ilə barələrində ev dustaqlığı (əsas) və vəzifədən kənarlaşdırma (əlavə) növündə qətimkan tədbirləri seçilib.

Hazırda cinayət işi üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilməklə qanunsuz əməllərin törədilməsində iştirak edən digər şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi təmin ediləcək.

# Professor Nurəli Əfəndiyevin 100 illik yubileyi qeyd edildi






**Azərbaycan Tibb Universitetində (ATU) görkəmli elm xadimi, Azərbaycan Dövlət Tibb İnstitutunun (ADTİ) Urologiya kafedrasının ilk müdiri (1975-1990), cərrah-uroloq professor Nurəli Əfəndiyevin 100 illik yubileyinə həsr edilən elmi-praktik konfrans keçirilib.**

İlk olaraq Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə giriş sözü ilə çıxış edən səhiyyə naziri Teymur Musayev görkəmli alimin şərəfli ömür yolundan və geniş elmi fəaliyyətindən söz açıb.

Bildirilib ki, 130-dan artıq elmi əsərin müəllifi olan Nurəli Əfəndiyev şərəfli pedaqoq ömrü yaşayıb, bütün həyatını Azərbaycan tibb elmi və səhiyyəsinin tərəqqisinə həsr edib.

Nazirin sözlərinə görə, Azərbaycan nəinki keçmiş sovetlər birliyində, hətta beynəlxalq səviyyədə də uroloji məktəbin yüksək dərəcədə inkişaf etdiyi məkanlardan biri idi: "Professor Nurəli Əfəndiyev nəinki urologiya, ümumilikdə, Azərbaycan tibb elminin inkişafına önəmli töhfələr verib".

ATU-nun elmi işlər üzrə prorektoru professor Məlahət Sultanova, Urologiya kafedrasının professoru Sudeyif İmamverdiyev və digərləri görkəmli alim haqqında xatirələrini bölüşüblər. Çıxışçılar professor N.Əfəndiyevin apardığı uzunmüddətli elmi tədqiqat işlərindən əldə edilən nəticələrin bu gün də böyrəyin rezeksiyası, prostat vəzinin bəzi xəstəliklərinin cərrahiyyəsində tətbiq olunduğunu və yeni araşdırmalara yol açdığını bildiriblər.

Konfransda ATU-nun Tədris Cərrahiyyə Klinikasının Urologiya kafedrasının, Akademik M.Cavadzadə adına Respublika Kliniki Uroloji Xəstəxanasının, Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi Tibb Baş İdarəsinin nümayəndələri böyrək xəstəlikləri, urologiya sahəsinə dair müxtəlif əməliyyatlar, bir sıra xəstəliklərin müalicəsinə müasir yanaşma metodlarına dair təqdimatlarla çıxış ediblər.

Alimin oğlu Elçin Əfəndiyev atasının xatirəsinə göstərilən ehtirama görə tədbirin təşkilatçılarına təşəkkürünü bildirib.

Sonra professor Nurəli Əfəndiyevin həyat yolu və elmi fəaliyyəti haqqında sənədli film nümayiş olunub.

Elmi-praktik konfrans öz işini panel sessiyalarla davam etdirib.

# Səhiyyə naziri: Təyyarə qəzasında yaralanan həmvətənlərimizin vəziyyətləri stabil və qənaətbəxşdir



Dekabrın 25-də Bakı-Qroznı reysi ilə uçan təyyarənin qəzaya uğraması nəticəsində yaralanan həmvətənlərimizin vəziyyətləri stabildir.

AZƏRTAC xəbər verir ki, bu sözləri səhiyyə naziri Teymur Musayev jurnalistlərə açıqlamasında bildirib.

Nazirin sözlərinə görə, Qazaxıstanda baş vermiş təyyarə qəzasında yaralanmış həmvətənlərimizə və digər zərərçəkənlərə dəstək məqsədilə Prezident İlham Əliyevin tapşırığı və Birinci vitse-prezident Mehriban Əliyevanın nəzarəti ilə geniştərkibli tibbi heyət dərhal hadisə yerinə göndərilib. "Həmin tibbi heyət artıq Bakıya qayıdıb. Yaralanan 14 Azərbaycan vətəndaşı Qazaxıstandan Vətənə gətirilib və Bakıdakı Yeni Klinika tibb müəssisəsində yerləşdirilib. İlkin müayinələrin nəticələrinə əsasən, onların vəziyyəti stabil və qənaətbəxşdir. Zərərçəkənlərin əksəriyyətinin yaxın günlərdə evlərinə buraxılması gözlənilir", - deyə nazir əlavə edib.

Teymur Musayev bildirib ki, yaralanan şəxslərdən üç Azərbaycan vətəndaşının müalicəsi Qazaxıstanda davam etdirilir. Onların vəziyyəti ortaağır olaraq qiymətləndirilir.

Nazirin sözlərinə görə, yaralananların xəsarətləri əsasən travmatik zədələrdir, sınıqlar və küt travmalar müşahidə olunur. "Ağır vəziyyətdə olan şəxslər hazırda süni tənəffüs aparatına qoşulmuş vəziyyətdədirlər. Onların vəziyyətində müsbət dinamika müşahidə edildikdən sonra təxliyə həyata keçiriləcək", - deyə nazir vurğulayıb.

Təyyarə qəzası nəticəsində həyatını itirən şəxslərin nəşlərinin Azərbaycana gətirilməsi və dəfn olunması üçün bütün zəruri addımların atıldığını söyləyən nazir onu da bildirib ki, Qazaxıstanda müvafiq hüquqi və kriminalistik araşdırmalar tamamlandıqdan sonra nəşlər Azərbaycana gətiriləcək və dəfn olunacaq.

Səhiyyə naziri Teymur Musayev qəza nəticəsində həyatını itirən şəxslərin ailələrinə başsağlığı verib. O, hadisənin başvermə səbəbləri ilə bağlı ilkin araşdırmaların davam etdiyini vurğulayaraq deyib: "Hazırda bu mövzuda dəqiq açıqlama verilməsi mümkün deyil və hadisənin bütün təfərrüatları yalnız istintaq tamamlandıqdan sonra məlum olacaq. Azərbaycan dövləti Qazaxıstanla sıx əlaqədədir, həmvətənlərimizin müalicəsi və dəstəklənməsi üçün bütün mümkün tədbirləri davam etdirəcək".

Nazir onu da qeyd edib ki, aviaqəza ilə bağlı şəxsiyyəti müəyyənləşdirilməyənlər var, onların DNT analizləri aparılır. Onun sözlərinə görə, qəzada həlak olanlar arasında şəxsiyyəti hələ də müəyyənləşdirilməyənlərdən DNT nümunələri götürülüb və hazırda proses davam edir. "DNT analizlərinin nəticələri onların şəxsiyyətlərinin dəqiqləşdirilməsi və yaxınlarına məlumat verilməsi üçün vacibdir. Bu proses diqqətlə və operativ şəkildə həyata keçirilir", - deyə Teymur Musayev vurğulayıb.

# Plastik cərrahların qanuni peşə fəaliyyətinin yoxlanılması üçün Xüsusi Təftiş Komissiyası yaradılıb




**Ölkə ərazisində praktik tibb fəaliyyəti ilə məşğul olan plastik cərrahların peşə fəaliyyətinin qanuni əsasları ilə bağlı mediada ziddiyyətli məlumatlar yer alıb. Səsləndirilən iddialarla bağlı Səhiyyə Nazirliyi və Baş Prokurorluq tərəfindən ilkin araşdırmalar aparılıb və şübhəli məqamlar müəyyən edilib. Əldə olunan məlumatlara əsasən, bəzi hallarda sözügedən ixtisas daşıyıcısı qismində çıxış edən şəxslərin tibbi təhsil sənədləri və praktik tibb fəaliyyəti ilə məşğul olmağa hüquq verən şəhadətnamələrinin saxtalaşdırıldığı müəyyənləşdirilib.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, plastik cərrahiyyə ixtisası üzrə fəaliyyət göstərən tibb mütəxəssislərinin sözügedən istiqamətlə məşğul olmağa icazə verən sənədlərinin hüquqi əsaslarının kompleks şəkildə yoxlanılmasına ehtiyac yaranıb. Bununla bağlı olaraq, səhiyyə nazirinin müvafiq əmri ilə Səhiyyə Nazirliyinin, Baş Prokurorluğun, Daxili İşlər Nazirliyinin və Elm və Təhsil Nazirliyinin səlahiyyətli nümayəndələrindən ibarət Xüsusi Təftiş Komissiyası yaradılıb.

Azərbaycan Respublikasının ərazisində praktik tibb fəaliyyəti ilə məşğul olan plastik cərrahlar peşə fəaliyyətinin qanunauyğunluğunu təsdiq edən sənədlərinin notariat qaydasında təsdiq edilmiş surətlərini (baza ali tibb təhsilinə, diplomdansonrakı təhsilə aid bütün sənədlər, əmək kitabçası, tibbi fəaliyyətlə məşğul olmağa buraxılma barədə şəhadətnamə, sertifikasiya şəhadətnaməsi və digər) 2025-ci il yanvarın 31-dək Səhiyyə Nazirliyinə şəxsən təqdim etməlidirlər.

Mütəxəssis tərəfindən sənədlər tələb olunan qaydada və tarixədək təqdim edilmədiyi təqdirdə, bu hal onun praktik tibb fəaliyyəti ilə məşğul olmağa buraxılma barədə şəhadətnamə və ya sertifikasiya şəhadətnaməsinin ləğvi üçün əsas olacaq.

# “Tələbə və həkimlərin hazırlanmasında müasir texnologiyalar” mövzusunda konfrans keçirilib



**Səhiyyə sisteminin modernizasiyası və innovasion inkişafı dövründə tibbi texnologiyaların, müasir diaqnostika, müalicə, profilaktika və reabilitasiya metodlarının istifadəsini, kliniki, sosial və iqtisadi effektivliyini təmin edə bilən tibbi kadrlara böyük ehtiyac duyulur. Belə yüksəkixtisaslı mütəxəssislərin hazırlanması üçün müasir, informasiya və texnologiyalara əsaslanan sübutlu tibbi təhsil konsepsiyası həyata keçirilməlidir.**

Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda (ADHTİ) bu istiqamətdə davamlı tibbi təhsil üzrə görülən işlər çərçivəsində “Tələbə və həkimlərin hazırlanmasında müasir texnologiyalar” mövzusunda elmi-praktik konfrans keçirilib. Tədbir ADHTİ, Seçenov Universiteti və “Razvitie” MMC-nin birgə təşkilatçılığı ilə baş tutub.

İnstitutdan verilən məlumata görə, toplantıda açılış nitqi ilə çıxış edən ADHTİ-nun rektoru professor Nazim Qasımov konfransın Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mövcud əməkdaşlıq sazişləri çərçivəsində keçirildiyini bildirib. O, ölkəmizdə səhiyyə sistemində gedən inkişafdan danışıb, rəhbərlik etdiyi müəssisədə davamlı tibbi tədris konsepsiyası çərçivəsində tətbiq olunan yeniliklər barədə məlumat verib.

“Razvitie” MMC-nin baş direktoru Vadim Qvozdkov yaratdıqları “Piroqov” interaktiv kompleksinin tibbi təhsil sistemində tətbiqinin üstünlüklərindən danışıb və konfransın işinə müvəffəqiyyət arzulayıb.

Konfrans öz işini 2 sessiyada davam etdirib. Sessiyalarda əsas məruzəçi kimi Seçenov Universitetinin N.V.Sklifosovski adına Kliniki Tibb İnstitutunun Operativ cərrahiyyə və topoqrafik anatomiya kafedrasının professoru, tibb elmləri doktoru Yuriy Vasilyev, ADHTİ-nin Stomatologiya və üzçənə cərrahiyyəsi kafedrasının müdiri dosent Həsən Əsədov və Seçenov Universitetinin Bakı filialının prorektoru Zəhra Vəzirova çıxış ediblər.

Konfrans iştirakçıları nümayiş olunan kliniki halların araşdırılmasında fəal iştirak edib, diskussiya aparıblar.

# Səhiyyə Nazirliyi əhaliyə müraciət edib




**Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi əhaliyə müraciət edərək bildirib ki, qış mövsümü və havaların qeyri-stabil keçməsi ilə əlaqədar bütün respirator xəstəliklər, həmçinin mövsümi qrip hallarının artması daha çox müşahidə edilir:**

“Hər hansı səbəbdən profilaktik peyvəndlərdən kənarda qalan uşaqlar və yanaşı xəstəlikləri olan risk qrupuna aid şəxslər mövsümi respirator xəstəliklərə görə yüksək həssaslığa malik əhali qrupları hesab olunurlar”.

Əhalinin sağlamlığının qorunması və yoluxma hallarının qarşısının alınması məqsədilə Səhiyyə Nazirliyi xüsusilə yüksək həssaslığa malik şəxslərə kütləvi tədbirlərdə və insanların sıx toplaşdığı məkanlarda tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə, həmçinin əl gigiyenasına riayət etməyi tövsiyə edir. Eyni zamanda, gündəlik qidalanma rejiminə bol vitaminli ərzaqların daxil edilməsi məqsədəuyğundur.

“Hər bir vətəndaş sağlamlığına xüsusi diqqət və məsuliyyətlə yanaşmalı, özünü və ətrafındakıları infeksiyalara yoluxmadan qorumalıdır”, - deyə müraciətdə xəbərdarlıq olunur.

## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

### Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu

Dosent – 0.25 (Ümumi və plastik cərrahiyyə kafedrası)
Dosent – 0.5 (Oftalmologiya kafedrası)
Dosent – 0.5 (Pediatriya kafedrası)
Dosent –1.0 (Otorinolarinqologiya kafedrası)
Assistent – 0.5 (Pedagogika, psixologiya və xarici dil kursu ilə səhiyyənin təşkili və menecmenti kafedrası)

*Ünvan: Tbilisi pr, 3165 məh.*
*Telefon: 431-01-82*

### «Akademik C.M.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutu» PHŞ

*Arterial hipertoniya şöbəsi:*
Şöbə müdiri – 1.0
Böyük elmi işçi – 4.0
Elmi işçi – 4.0
Kiçik elmi işçi – 3.0
Böyük laborant – 2.0

*Ritm pozğunluğu şöbəsi:*
Şöbə müdiri – 1.0
Böyük elmi işçi – 3.0
Kiçik elmi işçi – 1.0

*Miokard infarktı şöbəsi:*
Şöbə müdiri – 1.0
Böyük elmi işçi - 2.0
Kiçik elmi işçi – 3.0

*Profilaktik kardiologiya şöbəsi:*
Şöbə müdiri – 1.0
Böyük elmi işçi – 2.0
Elmi işçi – 3.0

*Reabilitasiya şöbəsi:*
Şöbə müdiri – 1.0
Böyük elmi işçi – 1.0
Elmi işçi – 1.0
Kiçik elmi işçi – 3.0

*Ürək çatışmazlığı şöbəsi:*
Şöbə müdiri – 1.0
Böyük elmi işçi – 4.0
Elmi işçi – 2.0
Kiçik elmi işçi – 4.0

*Ünvan: F.Xoyski küç., 101*
*Telefon: 564 – 49 – 09*

### «Milli Hematologiya və Transfuziologiya Mərkəzi» PHŞ

Kiçik elmi işçi – 1.0
(Klinik diaqnostik laboratoriya şöbəsi. Patohistologiya bölməsi)

*Ünvan: M.Qaşqay küç., 37*
*Telefon: 440 – 32 – 10*

### «Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu» PHŞ

Kiçik elmi işçi – 1.0
(Analitik tibbi informasiya və monitorinq üzrə elmi şöbə)

*Ünvan: K.Kazımzadə küç., 118*
*Telefon: 510 – 61 – 19*

Baş redaktor:
N.MƏCİDOVA
Baş redaktorun müavini:
S.NƏBİYEVA
Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.
Təsisçi:
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
Qeydiyyat nömrəsi: B92
Ünvan: Mirəsədulla Mirqasımov küç., 1. Səhiyyə Nazirliyi, 2-ci mərtəbə, 249-cu otaq
Tel./faks: (012) 596-06-61
E-mail: tibbqazeti@health.gov.az
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və «CBS polygraphic production» mətbəəsində çap olunmuşdur.
İndeks: 1065 Tiraj: 19000

# Füzulidə ağciyər xəstəliklərinin erkən aşkarlanması üçün səyyar tibbi müayinələr keçirilib

**"Böyük Qayıdış" proqramı çərçivəsində Səhiyyə Nazirliyi işğaldan azad olunan ərazilərə köçürülən vətəndaşlar arasında müxtəlif xəstəliklərin aşkarlanması məqsədilə əhalinin kompleks müayinələrinin aparılması, tibbi konsultasiyaların verilməsi və sağlamlıq məmnunluğunun təmin edilməsi üçün silsilə tədbirləri davam etdirir.**










Nazirliyin təşkilatçılığı ilə keçirilən növbəti belə tədbir Füzuli şəhərində baş tutub. Aksiya zamanı Səhiyyə Nazirliyinin Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun tibb heyəti tərəfindən rayonun sakinlərinə tibbi xidmətlər göstərilib.

Aksiyanın məqsədi işğaldan azad edilən ərazilərdə məskunlaşan əhali üçün mütəmadi qaydada səyyar tibbi müayinələrin keçirilməsi yolu ilə əhalinin sağlamlığını yaxşılaşdırmaqdır. Eyni zamanda, tədbir Füzuli sakinlərinin sağlamlığının qorunmasında dəstək və yardım göstərməsi, həmçinin ağciyər sağlamlığının əsas aspektləri və profilaktik tədbirlər haqqında maarifləndirmə məqsədini daşıyır.

Müayinələr İnstitutun xüsusi təchiz olunan Səyyar klinikasında aparılıb. Tibbi avadanlıqların tam dəsti ilə təchiz edilən mobil klinikalar modul avadanlıq konsepsiyası sayəsində müxtəlif məqsədlər üçün istifadə oluna bilər. Müxtəlif diaqnostik prosedurlardan başlayaraq, ilkin tibbi yardım göstərməyə qədər istifadə edilən klinikalar ucqar ərazilərdə yaşayan əhaliyə tibbi xidmətlərin keyfiyyətini və əlçatanlığını təmin etmək məqsədilə yaradılıb.

Aksiya zamanı ETAXI-nin pulmonoloq, ftiziatr, allerqoloq, kardioloq, şüa-diaqnostika həkimi, rentgenoloq və laboratoriya həkimi tərəfindən müxtəlif instrumental-diaqnostik üsullardan istifadə edilməklə, ağciyərin flüoroqrafiyası, elektrokardioqrafiya, exokardioqrafiya, USM, spirometriya və qan qazının öyrənilməsi həyata keçirilib. Həmçinin vərəmlə bağlı (bəlğəm analizi və latent vərəm infeksiyasının diaqnostikası üçün dəri testləri) ixtisaslaşdırılmış müayinələr aparılıb.

Müayinələr nəticəsində səhhətində problem aşkarlanan şəxslərə tibbi məsləhətlər verilib və müvafiq müalicə təyin olunub.

Aksiya zamanı 270-ə yaxın Füzuli sakini müayinələrdən keçib.

Həmçinin tədbirdə yerli əhaliyə ağciyər xəstəlikləri və profilaktikası haqqında faydalı məlumatlar verilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, Səhiyyə Nazirliyi maarifləndirici tədbirlərin və müayinə aksiyalarının işğaldan azad olunan digər ərazilərdə də davamlı olaraq keçirilməsini nəzərdə tutub.

# Azərbaycanda bu dərman apteklərdən yığışdırıldı

*«Rovatineks» dərman vasitəsinin bir seriyası geri çağırılıb*

**Bu barədə Analitik Ekspertiza Mərkəzinin yaydığı məlumatda deyilir ki, «Qırxbulaq» MMC şirkətinin 20 dekabr 2024-cü il tarixli 3-28-11-299292024 nömrəli müraciət məktubuna əsasən, vəsiqə sahibi «Rowa Pharmaceuticals Ltd İrlandiya» şirkəti olan «Rovatineks» ticarət adlı kapsullar №50 (5?10) alüminium folqa blisterdə, karton qutu qablaşmada, 8481C seriyalı, son istifadə tarixi 122025 olan dərman vasitəsində istehsalçı tərəfindən aparılan stabillik tədqiqatlarından sonra spesifikasiyadan kənar nəticələr əldə olunub.**



Belə ki, dərman vasitəsinin 36 aylıq stabillik tədqiqatları zamanı tərkibində köməkçi maddə qismində mövcud olan zeytun yağının qeyri-spesifik qoxuya malik olduğu və analiz nəticəsində peroksid ədədinin yüksəldiyi aşkar edilib.

O da bildirilib ki, bu keyfiyyət qüsurunun olması səbəbindən istehsalçı dərman vasitəsinin Azərbaycan Respublikasında könüllü geri çağırmaq niyyətində olduğunu deyib: "Qeyd edilən dərman vasitəsinin geri çağırılma dərəcəsinin 3 (dərman vasitəsinin şəxsin həyat və sağlamlığına birbaşa təhlükə yaratmadığı hallar), dərman vasitəsinin geri çağırılma səviyyəsinin isə «B» (son istifadəçini dərman vasitəsi ilə təmin edən müəssisələrə qədər (pərakəndə satış müəssisəsi, tibb müəssisəsi)) səviyyəsində müəyyən olunduğu bildirilib. Yuxarıda qeyd edilənlərə əsasən, İrlandiyanın "Rowa Pharmaceuticals LTD" istehsalçısına məxsus, "Rovatineks kapsullar №50" adlı, 8481C seriyalı, son istifadə tarixi 122025 olan dərman vasitəsinin geri çağırılması barədə qərar qəbul edilib. Bu o deməkdir ki, yalnız 8481C seriyalı, son istifadə tarixi 122025 olan dərman vasitəsi geri çağırılır. Stabillik tədqiqatlarının aparılması dərman vasitəsinin yararlıq müddətinin tədqiq edilməsi üçün olub, adi şəraitdən fərqli temperatur və rütubət göstəriciləri olan xüsusi stabillik kameralarında aparılır. Məktubda bildirildiyinə görə, buna rəğmən sözügedən dərman vasitəsi ilə bağlı istehsalçıya hər hansı şikayət daxil olmayıb", - məlumatda bildirilib.


2025
"HB Co LTD" şirkəti
Azərbaycan xalqını
Dünya Azərbaycanlılarının
Həmrəylik Günü və
Yeni il bayramı münasibətilə
səmimi qəlbdən
təbrik edir.
HB Co LTD
Sağlam gələcək -
bizimlə gələcək!


AVROMED
Mocom M10
Stomatoloji qurğu
Mocom
firması istehsalı olan
müxtəlif konfiqurasiyalı
stomatoloji qurğular
Mocom Firması avadanlıqlarının
Respublikamızda yeganə
distribütoru Avromed Dentaldır
@avromed_company
@avromedcompany
avromed.az
info@avromed.az